**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**
**BAKI DÖVLƏT UNİVERSİTETİ**

*Əlyazması hüququnda*

**VƏFA MƏNSUR qızı KƏRiMOVA**

# QLOBALLAŞMANIN VƏ MİLLİ XÜSUSİYYƏTLƏRİN AİLƏDAXİLİ MÜNASİBƏTLƏRƏ TƏSİRİ

6104.01 – Pedaqoji psixologiya

Psixologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

**A V T O R E F E R A T I**

**Bakı – 2018**

İş Azərbaycan Dövlət Pedaqoji Universitetinin Ümumi psixologiya kafedrasında yerinə yetirilmişdir.

Elmi rəhbər: Psixologiya üzrə elmlər doktoru, əməkdar müəllim, professor **Ramiz İbrahim oğlu Əliyev**

Rəsmi opponentlər: psixologiya üzrə elmlər doktoru, professor **Gülnarə Kazım qızı Qurbanova**

psixologiya üzrə fəlsəfə doktoru **Mehriban Niyaz qızı Əyyubova**

Aparıcı təşkilat: **Bakı Slavyan Universitetinin Pedaqogika və Psixologiya kafedrası**

Müdafiə "_____" "_____________" 2018-cı il saat___ da Bakı Dövlət Universitetinin nəzdində psixologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim olunan dissertasiyaların müdafiəsini keçirən FD.02.014 Dissertasiya şurasının iclasında olacaqdır.

Ünvan: AZ 1148, Bakı şəhəri, Zahid Xəlilov küçəsi 23, II korpus, auditoriya 901

Dissertasiya ilə BDU-nun elmi kitabxanasında tanış olmaq olar.

Avtoreferat "___" "_________" 2018-ci ildə göndərilib.

FD. 02.014 Dissertasiya psixologiya üzrə fəlsəfə doktoru,

şurasının elmi katibi dosent **Rəşid Vəkil oğlu Cabbarov**

## İŞİN ÜMUMİ XARAKTERİSTİKASI

**Mövzunun aktuallığı.** Müasir dövrdə elmi – texniki tərəqqi, iqtisadiyyatın inkişafı, dövlətlər arasında siyasi, mədəni, sosial əlaqələrin genişlənməsi xalqların və ölkələrin yaxınlaşmasının, qarşılıqlı təsir imkanlarının yüksəlməsinin əsas səbəblərindən biridir. Qloballaşma və inteqrasiya prosesində eyni zamanda insanların, millətlərin etnik identikliyi, habelə milli suverenlik və etnik mobillik ideyası güclənir. Bütün bunların kompleks təsiri nəticəsində milli şüur və milli hisslər yeni məzmun kəsb edir, yeni dəyərlər yaranır ki, bu da şəxsiyyətlərarası və ailədaxili münasibətlərə əhəmiyyətli təsir göstərir.

Qloballaşma və milli xüsusiyyətlər çox zaman qarşı-qarşıya dayanır. Qloballaşma bir tərəfdən cəmiyyətin həyatında ümumi dəyərlərin yaranmasını diktə edir, digər tərəfdən inteqrasiyanı zəruri proses kimi diqqət mərkəzinə gətirir. Bu zaman ən çox təsirlərə məruz qalan ailə institutları və ailədaxili münasibətlərdir. Çünki dəyərlərin dəyişməsi tərbiyə sistemini yeni əsaslarda qurmağı və ya onu yeni şəraitə uyğunlaşdırmağı tələb edir. Milli xüsusiyyətlər isə adət-ənənələri qorumağı, ailə institutlarında deformasiyaların baş verməsinin qarşısının alınmasını tələb edir. Belə bir şəraitdə ailədaxili münasibətlər ikili təsirin altında inkişaf etməyə başlayır. Bütünlüklə qloballaşmaının ailə münasibətlərinə neqativ təsir göstərdiyini söyləmək olmaz. Ona görə ki, dünyanın inkişaf etmiş dövlətləri ilə inteqrasiya, yeni sosial–mədəni, iqtisadi, siyasi əlaqələrə qoşulma, onların qanunlarını və tələblərini öyrənmə günün vacib tələblərindən biridir. Bu aliə sistemini bir sıra pozitiv cəhətlərlə təmin edir. Lakin elə dəyərlər var ki, milli xüsusiyyətlərimizi, adət və ənənələrimizi tarixin arxivinə sıxışdırır və milli-mənəvi dəyərləri unutdurur. Məhz buna görə də cəmiyyətin təməl institutlarından olan ailə institutunun qorunub saxlanması olduqca vacib və təxirəsalınmaz vəzifələrdən biridir.

Nəzərə almaq lazımdır ki, ailə tərbiyəsi, ailədaxili münasi-

bətlərin öyrənilməsi və tədqiq edilməsi bütün dövrlərdə daimi diqqət mərkəzində olmuşdur. Lakin qloballaşma şəraitində bu münasibətlərin yeni məna və məzmun kəsb etməsi ailə münasibətlərinə yeni kontekstdən baxmağa tədqiqatçıları məcbur edir.

Faktlar göstərir ki, cəmiyyətdə baş verən yeniliklər ailə münasibətlərinə, onun üzvlərinin rəftar və davranışına, həmçinin ailədaxili tərbiyə sisteminə ciddi təsir göstərir. Bir sıra hallarda belə təsirlər ailə institutları üçün qarşısı alınmaz olur, ailədaxili konfliktlər çoxalır, boşanmaların sayı getdikcə artır. Belə halların qarşısının alınması və bu kimi davranış tərzlərinin aradan qaldırılması üçün qloballaşmanın və milli xüsusiyyətlərin təsir dərəcəsinin psixoloji mexanizmlərini müəyyən etmək və profilaktik tədbirlər sistemi işləyib hazırlamaq lazımdır.

Qeyd etmək lazımdır ki, qloballaşmanın və milli xüsusiyyətlərin ailədaxili münasibətlərə təsirinin psixoloji mexanizmlərinin öyrənilməsi ailənin yeni şəraitə uyğunlaşmaq və milli-mənəvi dəyərlərə əsaslanan münasibətlər qurmaq qabiliyyətini artırmaq üçün bir vasitə ola bilər.

Bununla yanaşı qeyd olunan cəhətlərin tədqiqi ailə institutunun inkişaf istiqamətlərini və ailədaxili münasibətlərin inkişaf dinamikasını proqnozlaşdırmağa imkan verər. Beləliklə, bütün deyilənləri nəzərə alıb “Qloballaşmanın və milli xüsusiyyətlərin ailədaxili münasibətlərə təsiri” mövzusunun tədqiqat obyekti kimi seçilməsini məqsədəuyğun hesab etdik.

**Mövzunun işlənmə səviyyəsi.** Problem özündə qloballaşmanı, milli xüsusiyyətləri və ailə münasibətlərini birləşdirir. Eyni zamanda o təkcə sosioloji, fəlsəfi, pedaqoji problem kimi deyil, həm də psixoloji problem kimi geniş sahəni əhatə edir. Hələ ötən əsrin 60-cı illərindən başlayaraq, qloballaşma ümumi nəzəri kontekstdə, mədəniyyətlərarası münasibətlər və iqtisadi əlaqələr aspektində işlənib hazırlamağa başladı. Bir çox tədqiqatçıalar, o cümlədən S.Stiqlitz, Q.Zimmel, L.İonin, L.Kozer, T.Stefanenko, V.Şaklein, A.Kravçenko, N.Hanin bu problemi iqtisadi, fəlsəfi və sosioloji aspektdə tədqiq etmişlər.

E.Dürkeym, D.Verder, K.Tomson, Q.Olport, R.Kettel, E.Erikson, Q.Tome və b. isə cəmiyyətin həyatında baş verən dəyişikliklərin qarşılıqlı münasibətlərə və şəxsiyyətin formalaşması proseslərinə təsiri aspektində, K.Rocers, C.Rotter, A.Maslou Q.Andreyeva, F.Vasilyuk, N.Lebedeva və b. problemi sosial – koqnitiv, təfəkkür tərzi, həyat tərzi və şəxsiyyətə təsir nöqteyi–nəzərindən araşdırmışlar.

Qloballaşmanın təsirini etnopedaqoji və etnopsixoloji aspektlərdə araşdıran alimlər (Q.N.Volkov, N.L.İvanova, V.S.İvanova, V.S.Kukuşkin, N.M.Lebedeva, Q.V.Nezdemkovskaya, Q.T.Stefanenko və b.) onun şəxsiyyətin formalaşmasına təsirini təhsil, ictimai mühit, mədəniyyətlərarası münasibətlər nöqteyi – nəzərindən tədqiq etmişlər.

Milli xüsusiyyətlərin və qloballaşmanın qarşılıqlı təsiri ailə mühitində də öz əksini tapır. Problemin bu aspekti pedaqoqların və psixoloqların tədqiqatlarında ətraflı təsvir edilmişdir (Y.Y.Alyoşina, A.K.Volkova, L.Q. Qozman, N.V.İvanova, S.V.Kovalyov, N.Q.Solovyov, Y.M.Torşilova, Y.Q.Eydemiller, E.Erikson və b.).

Problemin ümumnəzəri, pedaqoji, psixoloji aspektləri Azərbaycan psixoloqları və pedaqoqları tərəfindən də araşdırılmışdır (Ə.S.Bayramov, Ə.Ə.Əlizadə, B.H.Əliyev, K.R.Əliyeva, R.H.Qədirova, R.İ.Əliyev, H.E.Əzimov, X.H.Fətəliyev, N.M.Muxtarova, H.Ə.Əlizadə, F.B.Sadıqov, L.N.Qasımova və digərləri problemi milli xüsusiyyətlər aspektində tədqiq etmiş, ailə tərbiyəsi, ailə mühiti və təhsil mühitinin ailədaxili münasibətlərə təsirini araşdırmışlar. Lakin problemin bütün aspektlərinin sadalanan tədqiqatlarda öz əksini tapmasını söyləmək çətindir. Bu da problemin bir daha aktual olduğunu göstərir.

**Tədqiqatın obyekti** ailə münasibətlərinin psixoloji xüsusiyyətləridir.

**Tədqiqatın predmetini** qloballaşma və milli xüsusiyyətlərin ailədaxili münasibətlərə psixoloji təsiri təşkil edir.

**Tədqiqatın məqsədi** qloballaşmanın və milli xüsusiyyətlə-

rin ailə münasibətlərinə təsirinin psixoloji xüsusiyyətlərini aşkar etmək, eləcə də bu proseslərdə milli dəyərlərin rolunu müəyyən etməkdir.

**Tədqiqatın fərziyyəsi**. Qloballaşma prosesinin ailə münasibətlərinə təsiri milli xüsusiyyətlərin spesifikliyindən asılıdır və qloballaşmanın ailədaxili münasibətlərə gətirdiyi milli xüsusiyyətlərin və yeni dəyərlərin birləşməsi ilə müəyyən edilir.

Əsas fərziyyəyə əlavə olaraq, bir  əlavə fərziyyə də irəli sürülmüşdür:

- Ailənin tərbiyəsi və bunun ailədaxili münasibətlərə çevrilməsi prosesində müasir tələblərin və milli xüsusiyyətlərin birləşməsi ailədə müsbət psixoloji mühitinin yaradılmasına təsir göstərir.

**Tədqiqatın vəzifələri.** Tədqiqatda qarşıya qoyulmuş məqsədin həyata keçirmək üçün aşağıdakı vəzifələrin  həlli nəzərdə tutulmuşdur:

- Qloballaşmanın və milli xüsusiyyətlərin mahiyyətini tədqiq edilməsi;
- Müvafiq fəlsəfi, psixoloji, pedaqoji tədqiqatları və elmi ədəbiyyatı öyrənilməsi və təhlil edilməsi;
- Ziddiyyətlərin və qloballaşma və milli identiklik arasında uyğunluqların psixoloji aspektlərinin tədqiq edilməsi;
- Qloballaşma və milli xüsusiyyətlərin insanların psixikasına və davranışına qarşılıqlı təsirinin psixoloji mexanizmlərinin aşkar edilməsi;
- Müasir dövrdə ailə həyatına valideynlərin və gənclərin münasibətlərinin və baxışlarının istiqamətlərinin  öyrənilməsi.

**Tədqiqatın metodoloji əsasları və metodikası.** Tədqiqatın metodoloji əsasını ümumi elmi metodlar və qanunauyğunluqlar, elmi psixologiyanın metodoloji prinsipləri, şəxsiyyətin və münasibətlərin formalaşması haqqında nəzəri müddəalar təşkil edir. Tədqiqatın metododoligiyasında Əbdül Əlizadənin ailədaxili münasibətlərlə bağlı müddəalarına istinad edilmişdir. Tədqiqatda nəzəri təhlil, müşahidə, müsahibə və anket sorğusundan istifadə

edilmişdir.

Tədqiqat Azərbaycan Dövlət Pedaqoji Universitetinin 264 tələbəsini, 238 işləyən və işləməyən gəncləri, təqaüdçüləri və evdar qadınları əhatə etmişdir.

**Tədqiqatın elmi yeniliyi.** Mövcud işlərdən fərqli olaraq, bu işdə qloballaşmanın və milli xüsusiyyətlərin ailə mühitinə və ailədaxili münasibətlərə inteqrativ təsiri araşdırılmışdır. Tədqiqat zamanı qloballaşmanın ailədaxili münasibətlərə təsirinin müsbət və mənfi tendensiyaları aşkar edilmişdir. Belə bir təsir mexanizmi qismində milli dəyərlər və onların milli ailə xüsusiyyətlərini formalaşdıran alət kimi rolu göstərilir.

**Müdafiəyəyə çıxarılan əsas müddəalar:**

- Qloballaşma prosesi iqtisadi, siyasi, ideoloji, eləcə də psixoloji problem olmaqla yanaşı, ailədaxili mühitinin formalaşmasına və ailə daxilində qarşılıqlı münasibətlərə təsir göstərir;
- Qloballaşma prosesinin gətirdiyi yeniliklərin mahiyyəti, tendensiyaları, müsbət və ya mənfi aspektləri izah edilmədikdə ailədə psixoloji gərginlik, münaqişələr və aqressiya artır;
- Qloballaşmanın milli dəyərlərə təsiri ailədə oturuşmuş milli xüsusiyyətləri dəyişir, ailədaxili münasibətlərdə müəyyən proseslərin yaranmasına təhrik edir;
- Ailə mühitində, mütərəqqi aspektləri nəzərə alaraq, milli xüsusiyyətləri, adətləri, ənənələri, xasiyyətləri, stereotipləri və mentaliteti öyrənmək ailədə sağlam psixoloji mühitin formalaşmasında müsbət rol oynayır.

**Tədqiqatın nəzəri əhəmiyyəti.** Qloballaşmanın və milli xüsusiyyətlərin ailə mühitinə, ailədə qarşılıqlı münasibətlərə, münaqişəli situasiyaların yaranmasına, psixikaya və davranışa təsirinin öyrənilməsi ailə psixologiyası və pedaqoji psixologiyanı yeni elmi müddəalarla zənginləşdirir. Əldə olunmuş nəticələr qloballaşma və milli xüsusiyyətlərin öyrənilməsi ilə bağlı yeni elmi istiqamətlərin ortaya çıxamsına zəmin yaradır və ailə münasibətlərinin formalşamsında hər iki amilin aparıcı amil kimi nəzərə alınmasını zəruri edir.

**Tədqiqatın praktik əhəmiyyəti.** Tədqiqatdan alınan nəticələr ümumi psixologiyanın, yaş və pedaqoji psixologiyanın təkmilləşdirilməsində, təlim-tərbiyə nəzəriyyələrinin yaradılmasında, habelə ailə psixologiyası kurslarnın proqramının tərtib edilməsində, seminarlarda, həmçinin gənc ailələr və ailə qurmağı planlaşdıran şəxslər üçün dəyirmi masaların və treninqlərin aparılması zaman istifadə edilə bilər. Dövlət qulluqçuları, təhsil və təhsil müəssisələri işçiləri, praktik psixoloqlar, elmi əməkdaşlar (alimlər), bu sahənin tədqiqatçıları öz nəzəri və praktik fəaliyyətlərində aparılmış tədqiqata istinad edə bilərlər. Tədqiqatın nəticələrindən seçmə fənlərin tədrisində istifadə oluna bilər.

**Tədqiqatın nəticələrinin aprobasiyası.** Tədqiqatın nəticələri Azərbaycan Dövlət Pedaqoji Universitetinin Ümumi psixologiya kafedrasının elmi seminarlarında, respublika elmi–praktik konfranslarında müzakirə edilmiş, tezislər və məqalə şəklində dərc edilmişdir. Tədqiqatın nəticələri ümumi psixologiya kafedrasının apardığı tələbələrlə praktik məşğələlərdə və seminarlarda, habelə ailə psixologiyası üzrə mühazirələrin oxunması zaman istifadə edilmiş və bu yolla aprobasiyadan keçmişdir.

**Dissertasiya işinin strukturu.** Dissertasiya girişdən, iki fəsildən, nəticə və istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir.

## İŞİN ƏSAS MƏZMUNU

Girişdə problemin aktuallığı, onun işlənmə dərəcəsi əsaslandırılır, tədqiqatın məqsədi, məsələləri, hipotezləri, metodları və metodologiyası müəyyən edilir, elmi yeniliyi açılır, tədqiqatın nəzəri və praktik əhəmiyyəti şərh edilir, müdafiəyə çıxarılan müddəalar təqdim edilir.

Dissertasiyanın **“Milli xüsusiyyətlərin qloballaşma probleminin ümumnəzəri məsələləri və onun ədəbiyyatda qoyuluşu”** adlanan birinci fəsil üç yarımfəsildən ibarətdir. I fəslin **“Qloballaşma probleminin tarixi, mahiyyəti və onun ədəbiy-**

**yatda qoyuluşu"** adlanan birinci yarımfəsilində qloballaşmanın mərhələləri nəzərdən keçirilmişdir. Bu yarımfəsil çərçivəsində həmçinin bəşəriyyətin müxtəlif tarixi dövrlərdə ümumnəzəri problemlər işıqlandırılmışdır. Qloballaşma xarakteri və təsir sahəsinə görə qədim tarixə və bir sıra inkişaf mərhələlərinə malikdir. Onun xüsusiyyətlərinin əksəriyyəti hələ eramızdan əvvəl öz hökmranlığı altında müxtəlif xalqları, mədəniyyətləri və əraziləri birləşdirən Roma imperiyasında meydana çıxmışdır. Qeyd etmək lazımdır ki, cəmiyyət bütün mərhələlərdə digər sahələrdən təcrid edilmiş şəkildə yalnız bir istiqamətdə inkişaf edə bilməz. Elmdə, sənayedə, texnikada və digər sahələrdə baş verən dəyişikliklər, yenilənmələr insan faktoruna, münasibətlər sisteminə bilavasitə təsir edir. Deməli, XII – XIII əsrlərdə baş verən ictimai – tarixi proseslər, o cümlədən, dinin hakim vəziyyəti yeni təfəkkür və münasibətlər tərzi yaratmalı idi. Öz növbəsində, bu qloballaşmanın yeni forması demək idi. Bu yarım fəsildə həmçinin qloballaşmanın yaranmasının səbəbləri, psixoloji məqamları diqqət mərkəzinə gətirilir, qloballaşmanın psixoloji mahiyyəti qeyd olunur.

Dissertasiyanın I fəslinin **"Milli xüsusiyyətlərin ümumi problemləri və onların psixoloji–pedaqoji ədəbiyyatda qoyulması"** adlı ikinci yarımfəslində qloballaşma və onunla həyatda yaranan bir sıra proseslər və hadisələr arasında səbəb – nəticə əlaqəsi təsvir edilir. Qeyd etmək lazımdır ki, qloballaşma inkişaf edərək və güclənərək bir çox xalqlara və millətlərə onların etnik şüurunun aktivləşləşməsinə təkan verdi. Belə "özünü axtarışlar", öz növbəsində, XX əsrin sonundan müşahidə etdiyimiz milli və siyasi müstəqillik uğrunda mübarizəni gücləndirdi. Planetin müxtəlif hissələrində belə mübarizənin səbəb olduğu siyasi qeyri–stabillik dövlətlər arasında sərhədlərin açılması ilə birgə həm sosial, həm də əmək miqrasiyasının, artıq bu gün "xalqların yeni böyük köçü" adlanan görünməmiş mühacirətin artmasına xidmət etdi. Milli xüsusiyyətlər həm sadalanan, həm də digər amillərin təsiri altında bir sıra pozitiv və neqativ təsirlərə məruz qalır.

Gözlərimiz qarşısında yeni mənəvi - əxlaq dəyərləri yaranır, onları üç qrupa bölmək olar: 1) minilliklərlə yaranan, inkişaf edən, formalaşmış, hazırda da üstün rol oynayan dəyərlər; 2) ölkədə yaşayan digər xalqların adətləri və ənənələrinin sintezi nəticəsində yaranan milli dəyərlərlə yanaşı mövcud olan dəyərlər; 3) qloballaşma nəticəsində və təsiri altında yaranan dəyərlər. Bu yarımfəsildə həmçinin V.Tişkovun, C.Uaytin, M.Midin, Q.Volkovun, A.Ş.Həşimovun, V.Kukuşkinin, K.D.Kavelinin və bir çox digər tədqiqatçıların əsərlərində qloballaşma və milli xüsusiyyətlərin inteqrasiyası məsələləri təhlil olunmuşdur. Bu yarımfəsildə milli xüsusiyyətlər də araşdırılmışdır. Burada Ə.S.Bayramovun və Ə.Ə.Əlizadənin tədqiqatları hərətəfli təhlil olunmuşdur.

Dissertasiyanın I fəslinin **"Müxtəlif xalqların və azərbaycanlıların psixoloji xüsusiyyətləri və prioritet mənəvi dəyərləri"** adlı üçüncü yarımfəslində ayrı – ayrı insanların və xalqların eyni və fərqli cəhətlərinin yaranmasına, inkişafına, formalaşmasına təsir edən müxtəlif amillər nəzərdən keçirilmişdir. Onların arasında, ilk növbədə, diqqəti hər bir xalqın özünəməxsus xüsusiyyətləri, xarakteri, hissləri, adət və ənənələri cəlb edir. Lakin elmi–texniki tərəqqi qloballaşmaya yeni məzmun və yeni keyfiyyət vermişdir. Hesab edilir ki, o bir tərəfdən, xalqların və ölkələrin öz iradəsinə əsasən cəlb olunduğu prosesdir. Əslində isə o, məcburi, icbari xarakter daşıyır. Təzadlı bir haldır ki, qloballaşma ilə paralel olaraq milli identiklik, mili mənsubiyyət və milli qürur hissləri də güclənir. Eyni zamanda, böyük qloballaşmadan müdafiə üçün regional qloballaşmaya meyl artır. Beləliklə, öz mənəvi dəyərlərinin, mədəniyyətinin və milli ləyaqətinin müdafiəsi məqsədilə böyük qloballaşma prosesinin təsiri altında bir sıra regional təşkilatlar yaranmışdır. Cənub – Şərqi Asiya ölkələrinin də, Latın Amerika ölkələrinin də, İslam Konfransı Təşkilatı ölkələrinin və digərlərinin birləşməsi buna nümunədir. Bu ölkələrin əhalisində belə bir sabit fikir formalaşmışdır ki, qloballaşma yalnız qərb ölkələrinin maraqlarına xidmət edir. Lakin hətta inkişaf etmiş ölkələr də bu prosedən ehtiyat edirlər və ondan

kənarda qalmağa çalışırlar. Fransada da, Almaniyada da, İngiltərədə də, İtaliyada və Rusiyada da, habelə digər ölkələrdə də bu prosesin tərəfdarları – qlobalistlərlə yanaşı, onun əleyhdarları – antiqlobalistlər də mövcuddur. Onlar hesab edir ki, qloballaşma nəticəsində onların milli mədəniyyəti və milli dəyərlər deformasiyaya uğrayacaq.

Dissertasiyanın **"Cəmiyyətin həyatında baş verən dəyişikliklər və ailədaxili problemlərə onların təsirinin psixoloji xüsusiyyətləri"** adlı ikinci fəsil də üç yarımfəsildən ibarətdir.

Dissertasiyanın II fəslinin **"Qloballaşmanın və milliyyətin insanların psixikasına və davranışına təsirinin psixoloji xüsusiyətləri"** adlı birinci yarımfəslində xalqın təfəkkür və davranış tərzini müəyyən edən milli xüsusiyyətlərin, adətlərin və ənənələrin təsiri nəzərdən keçirilir. Ona görə ki, insanın böyüdüyü mühit də, sosial cəhətdən təqdir edilən normalar da onların əsasında qurulur. Digər tərəfdən, cəmiyyətin həyatında baş verən proseslər, beynəlxalq əlaqələrin genişlənməsi, kommunikasiya vasitələrinin inkişafı (internet, televiziya və s.) öz təsirini göstərir. Müasir dövrdə milli xüsusiyyətlər toplusunu əhatə edən "mentalitet" sözü daha çox işlədilir. Bu hər bir xalqın emosional və koqnitiv tərəfinə aid edilir. Əgər "mentalitet" anlayışına diqqət yetirsək, o zaman bu və ya digər cəmiyyətdə şüur sahəsində fərqləri görə bilərik. Bütünlükdə bəşəriyyətə aid edilənlər istisna edilməklə, qalan keyfiyyətləri bu cəmiyyətə xas olan milli mentalitet adlandırmaq olar. Vətənə məhəbbət, yaxın insanların itkisi və s. ümumi insani hisslərdir. Bununla bərabər, qan düşmənçiliyini, belə düşmənçiliyə görə qisası hər bir xalq müxtəlif cür dərk edir və qiymətləndirir.

Bu yarımfəsildə həmçinin milli xüsusiyyətlərlə bağlı etnik məsələlər araşdırılır. Qeyd etmək lazımdır ki, etnik psixologiyada etnik ümumilik ön plana çıxır. Burada əsasən, milli və etnik xarakter, adətlər, ənənələr, psixoloji istiqamət, var – dövlətə meyllik, davranış və ünsiyyət modeli və s., habelə milli və etnik hisslər, onların məzmumu xüsusi diqqəti cəlb edir. Başlıcası odur

ki, bütün bunlar nəsildən nəslə ötürülərək mənəvi adətlərdə və baxışlarda, etiqadda və əqidədə, davranış tərzində və bu millətin nümayəndələrinin ünsiyyətində, digərlərinə münasibətdə təzahür edir. Bu yarımfəsildə belə bir qənaətə glinir ki, milli xüsusiyyətlər milli tərbiyə sisteminə əsaslanırsa qloballaşmanın təsiri əhəmiyyətli dərəcədə özünü göstərmir.

Dissertasiyanın II fəslinin **"Müasir dövrdə ailə həyatına valideynlərin və gənclərin mövqeyinin və münasibətinin psixoloji xüsusiyyətləri"** adlı ikinci yarımfəslində cəmiyyətin həyatında baş verən və ilk növbədə, ailə həyatında, ailədə münasibətdə öz əksini tapan yenilənmə proseslərini (həm neqativ, həm də pozitiv) nəzərdən keçirilmişdir. Həmçinin burada qeyd edilir ki, ailəyə münasibət cəmiyyətə münasibətin əsas tərkib hissəsidir.

Milli identikliyin və qloballaşmanın qarşılıqlı təsiri şəxsiyyətlərarası, o cümlədən, ailədaxili münasibətlər, bir çox hallarda isə münaqişələr sistemində dəyişikliklərin yaranma səbəbinə çevrilir. Dəyişikliklər daha aşkar vəziyyətdə o vaxt təzahür edir ki, bilavasitə insanların maraqlarına təsir edir.

Qeyd edildiyi kimi, qloballaşma bütünlükdə cəmiyyətə də, ayrı – ayrı fərdlərə də təsir edir, insanlara, xüsusən, yaşlı nəslə öz vərdiş etdiyi həyat tərzini dəyişməyə təkan verir. Bu proses dərhal və asan baş vermir. Qloballaşma, eyni zamanda, təfəkkür tərzinin, mədəniyyətin, dünyagörüşünün, təhsil sieteminin yenilənməsini bildirir. Bir tərəfdən, cəmiyyətin həyatında baş verən proseslərə, müasir dövrdə, xüsusən, qloballaşmada tələbat məsələlərinə, və digər tərəfdən, onun milli xüsusiyyətli ziddiyyətlərinə, milli xüsusiyyətlər və cinsi tərbiyə arasında asılılığın olması təsir edir. Çünki qızların və oğlanların tərbiyəsinin əsası ailədə qoyulur və valideynlər bu prosesdə böyük təsirə malikdir. Təbii ki, valideynlər eyni zamanda milli dəyərlərin daşıyıcılarıdır və onların bunu istəyib – istəməməsinə baxmayaraq, bu vəziyyət uşaqların tərbiyəsinə təsir edir. Sağlam ailədə uşaq tədricən kişi və qadının həyatı haqqında ümumi təsəvvürlərlə tanış olur: qız və ya oğlan öz anasının nümunəsində qadının davranış xüsusiyyət-

lərini öyrənir, tanın nümunəsində isə kişinin davranışını, bir çox hallarda onları özünün başa düşdüyü kimi dərk edir.

Milli dəyərlərdə baş verən dəyişiklikləri və münasibətlərin bəzi xüsusiyyətlərinin aşkar edilməsi üçün anket sorğusu keçirilmişdir. Anket sorğusu Azərbaycan Dövlət Pedaqoji Universitetin tələbələri ilə keçirilmişdir. Anketə aşağıdakı sual daxil edimişdi: "Ailə quran zaman kimin fikrini nəzərə alardınız?"

Tədqiqatlar göstərir ki, ənənəvi ailələrdə əksər hallarda həlledici fikir kimi valideynlərin fikrləri əsas götürülürdü. Sorğuda 130 tələbə iştirak etdi, onlardan 82-si qız, 48-i oğlan idi.

Cədvəl 2.1-dən göründüyü kimi qızların 52 % öz fikrinin həllediciliyini, 31 % valideynlərin fikrini, 17 % isə dostların və yoldaşların fikrini əsas götürmüşlər. Oğlanlar arasında sorğu göstərdi ki, 67 % bu məsələnin müstəqil həllini, 26 % valideynlərin fikrini daha vacib hesab etməyə meyllidir. 7 % isə dostların və yoldaşların fikrini nəzərə alır.

"Ailə quran zaman kimin fikrini nəzərə alardınız?" sualına tələbələrin cavablarının göstəriciləri (% -lə).

Cədvəl 2.1

| № | Sorğuda iştirak edənlər | Şəxsi fikir | Valideynlərin fikri | Dostların və yoldaşların fikri |
|---|---|---|---|---|
| 1 | Qızlar | 52,0 | 31,0 | 17,0 |
| 2 | Oğlanlar | 67,0 | 26,0 | 7,0 |

Valideynlərin fikrinə üstünlük verən tələbələr öz fikirlərini belə əsaslandırırlar ki, onların daha çox həyat təcrübəsi vardır, valideynlər ürəkdən arzu edirlər ki, uşaqlarınn firavan və xoşbəxt həyatı olsun.

Dostların və yoldaşların fikrinə üstünlük verən tələbələr öz fikirlərini onunla əsaslandırırlar ki, bu və ya digər cəhət kənardan daha yaxşı görünür (kənar baxış), gənclərin zövqləri uyğun gəlir

və s. Göründüyü kimi mövcud yanaşmalar ənənəvi fikirlərə nisbətən dinamikaya malikdir ki, belə dəyişilmələri inteqrasiya və qloballşma ilə şərh etmək mümkündür.

Qeyd etmək lazımdır ki, müasir dövrdə, həm orta məktəbdə, həm də ali məktəbdə şagirdlərin və tələbələrin dərsə davamiyyəti xsusi diqqət predmetidir. Valideynləri uşaqların sosiallaşmasına nisbətən tədris fəaliyyəti daha çox maraqlandırır. Mövcud vəziyyət nə müəllimləri, nə valideynləri, nə də şagirdlərin özlərini qane etmir. Belə vəziyyəti nəzərə alıb tələbələrə belə bir sualla müraciət edildi: "Həyat məsələlərinə görə kiminlə məsləhətləşərdiniz?"

Sorğu 84 qızı və 36 oğlanı əhatə etmişdi. Qızların və oğlanların cavabları və əsasları arasında böyük fərqlər vardır. Bundan başqa, valideynləri ilə birlikdə yaşayan tələbələrin cavabları ayrı yaşayan tələbələrin cavablarından fərqlənirdi.

Bakı və Sumqayıt şəhərlərindən 52 tələbə valideynləri ilə birlikdə yaşayırdı, 68 tələbə isə öz qohumları ilə və ya ayrı yaşayırdı. Təbii ki, belə vəziyyət onların həyat tərzinə və təfəkkürünə müəyyən təsir göstərir.

Valideynləri ilə birlikdə yaşayan tələbələrin 47 % qeyd etdi ki, valideynləri ilə məsləhətləşmək faydasızdır. "Onsuz da valideynlərim məni başa düşməzlər", "Mən artıq müstəqil insanam və müstəqil qərar qəbul etməliyəm", "Yoldaşlarım məni daha yaxşı başa düşür, nəinki valideynlərim" və s. Tələbələrin 38 % qeyd etdi ki, məsləhətləşmək vacibdir və onlar belə də edirlər. Bu məsələ barədə onlar aşağıdakıları qeyd etdilər: "Mənim valideynlərim daha təcrübəlidir, onlar arzu edirlər ki, mənim həyatım yaxşı olsun", "Dosta və yoldaşa heç də həmişə etibar etmək olmaz" və s. 11% qeyd etdiler ki, öz müəllimləri ilə məsləhətləşirlər. "Vəziyyətdən asılıdır, bəzi məsələlərə görə valideynlərlə, bəzilərinə görə isə dostlarla məsləhətləşmək olar".

Reallıqda qohumları ilə və ya mənzil kirayələyən tələbələrin 59 % qeyd etdi ki, dostları və yoldaşları ilə məsləhətləşirlər, 18 % müəllimləri ilə, 16 % valideynlərlə məsləhətləşirlər.

“Həyat məsələlərinə görə kiminlə məsləhətləşərdiniz?”-sualaına tələbələrin cavablarının göstəriciləri (%-lə).

Cədvəl 2.2

| № | Sorğuya cəlb edilən tələbələr | Valideynlərlə | Müəllimlərlə | Dostlar-la | Cavab verməyə çətinlik çəkənlər |
|---|---|---|---|---|---|
| 1 | Valideynləri ilə birlikdə yaşayanlar | 38,0 | 11,0 | 47,0 | 4,0 |
| 2 | Valideynlərində n ayrı yaşayanlar | 16,0 | 18,0 | 59,0 | 7,0 |

Dissertasiyanın II fəslinin **“Qloballaşmanın və milliyin qarşılıqlı təsirinin insanlar tərəfindən qəbul edilməsi və onun ailədaxili münasibətlər təsiri”** adlı üçüncü yarımfəslində qloballaşmanın və milliliyin qarşılıqlı təsiri məsələləri diqqət mərkəzinə gətirlimişdir. Burada Ə.Əlizadənin, R.Əliyevin, A.Xripkovanın, İ.Konun və digərlərinin tədqiqatlarına, habelə aparılan müşahidələrə əsalanaraq demək olar ki, ailə tərbiyəsi şagirdlərin davranışında və fəaliyyətində, motivlərin və şəxsiyyətlərinin bütünlükdə formalaşmasında vacib rol oynayır. Burada hətta ailədə uşaqların sayı da öz təsirinə malikdir. Çoxuşaqlı ailələrdə böyüyən uşaqlar daha qayğıkeş, ünsiyyətcil və həssas olurlar.

Burada qeyd edilir ki, qloballaşmanın və milliyin qarşılıqlı şəkildə ailə münasibətlərinə təsir göstərir. Bu təsirlər daha çox sosial adaptasiya, yeniliklərə münasibətdən, dəyərlərdən və əcnbi dəyərlər sisteminə münasibətdən asılıdır. Burada şəxsiyyət keyfiyyətləri, sosial status, ətrafdakılar, cəmiyyətdə baş verən proseslər və fərdin bütün bunlara şəxsi münasibəti əsas yer tutur. Tələbələrin, işləyən gənclərin və yaşlı nəslə aid olan insanların münasibəti haqqında təsəvvür almaq məqsədilə biz onların daha vacib və zəruri hesab etdikləri maddi və mənəvi dəyərləri sadalamağı xahiş etdik.

Tələbələrin, işləyən gənclərin yaşlı nəslin maddi və mənəvi dəyərlərə münasibəti (%-lə).

Cədvəl 3.3.

| № | Maddi və mənəvi dəyərlər | Tələbələr | İşləyən gənclər (20 – 40 yaş) | Yaşlı nəsildən olan şəxslər (40 – 60 yaş) |
|---|---|---|---|---|
| 1 | Perspektivli iş, yüksək həyat səviyyəsi | 48,5 | 42,3 | 39,.6 |
| 2 | Yüksək peşəkarlıq və nüfuz | 52,6 | 41,4 | 27,0 |
| 3 | Yüksək həyat səviyyəsi və nüfuz | 42,5 | 39,6 | 35,4 |
| 4 | Sakit, ahəngli ailə həyatı | 37,5 | 40,7 | 62,5 |
| 5 | Sadiq dostluq | 23,8 | 30,2 | 15,6 |
| 6 | Ləyaqətli və etibarlı insan olmaq | 39,6 | 33,8 | 22,7 |
| 7 | Vətənə və öz xalqına faydalı olmaq | 36,5 | 31,5 | 23,2 |

Qeyd etmək lazımdır ki, maddi və mənəvi dəyərlərin siyahısını biz tərtib etmişdik. Respondentlərə təklif edilənlərdən birini deyil, bir neçəsini göstərmək lazım idi.

Göründüyü kimi, respondentlərin dəyər sisteminə münasibəti müxtəlifdir. İlk növbədə maddi dəyərlər və maddi zənginlik ön plana gətirilir. Tələbələr arasında 52,6% yüksək peşəkarlığa və hakimiyyətə üstünlük verirlər. İşləyən gənclərin 41,4%-i məqbul yaşayış səviyyəsinin yüksək olduğunu və nüfuz qazanmaq olduğunu düşünür. Eyni zamanda, nisbətən yetkin nəsil hər şeyə ailə xoşbəxtliyini və sakit yaşayış tərzini (62.5%) üstün tutur.

Bununla yanaşı, maddi dəyəri mənəvi dəyərdən üstün hesab edən respondentlər öz motivlərini qismən ört – basdır etməyə çalışırlar. Nisbətən az sayda (39,6%) respondentlər maddi vəziyyəti özünütəsdiqlə əlaqələndirirlər. Respondentlərin 36,5 % maddi vəziyyətin yaxşılaşmasını ailə ilə və Vətənə xidmətlə əlaqələndirdilər.

Qloballaşma prosesi və onun təsiri nəticəsində insanlarda sosial normalara və mənəvi - əxlaqi dəyərlərə münasibət dəyişir. Şüurda da qəbul edilən və qəbul edilməyən, bəyənilən və bəyənilməyən dəyərlər arasında seçim baş verir. Humanist psixologiyanın ən vacib ideyalarından biri ondan ibarətdir ki, insanın təbiəti, mahiyyəti onun nə etdiyindən deyil, onun necə dərk etməsindən ibarətdir.

Gözlərimiz önündə yeni mənəvi - əxlaqi dəyərlər formalaşır. Onları, əsasən, üç qrupa bölmək olar. Birinci qrup – minilliklərlə yaranan, inkişaf edən, formalaşan, bu gün də üstün rol oynayanlardır. İkinci qrup – milli dəyərlərlə yanaşı mövcud olan, ölkədə yaşayan digər xalqların adətləri və ənənələrinin sintezi nəticəsində yarananlardır. Üçüncü qrup – qloballaşmanın təsiri altında yeni yaranan və davamlı şəkildə təzahür edən yeni dəyərlərdir.

Son illərdə cəmiyyətdə güclənən feministləşmə tendensiyaları diqqəti cəlb edir. Bu hallar əsasən tədris müəssisələrində baş verir. “Məktəbin feministləşməsi” dedikdə, biz məktəblərdə qadın müəllimlərlə kişi müəllimlərin faiz nisbətini nəzərdə tuturuq. Lakin demək olmaz ki, cəmiyyətdə feministləşmənin güclənməsi təkcə məktəblə məhdudlaşır. Eyni zamanda elmi – texniki tərəqqini, elmin və texnikanın sürətli inkişafını və başlıca olaraq, Qərbin təsiri amilini nəzərə almaq zəruridir. Burada cinsi fərqlər əsasında fəaliyyət sahəsinin təşkilində həddin götürülməsi də öz təsirini göstərir. Bu sahədə də, digərlərində olduğu kimi, yad tendensiyaların kor – koranə təqlidi ailə həyatına da mənfi təsir göstərir. Hazırda ilbəil ailələrdə boşanmaların faizi artdığı kimi, atılan uşaqların və qocaların da sayı artır. Belə hallara, xüsusən,

iri şəhərlərdə daha çox rast gəlinir. Uzaq kəndlərdə, milli adət və ənənələrin daha güclü olduğu yerlərdə boşanmaların faizi nisbətən azdır, uğurlu ailələrin sayı isə daha çoxdur.

Apardığımız tədqiqat aşağıdakı **nəticələri** gəlməyə imkan verir:

1. Ədəbiyyatın təhlili və aparılan tədqiqatlar göstərdi ki, qloballaşma şəraitində bir çox adətlərvə ənənələr, milli xüsusiyyətlər, milli – mənəvi dəyərlər dəyişir və yeni məzmun kəsb edir. Qloballaşma bütün ölkələrə və xalqlara eyni dərəcədə və eyni üsulla təsir etmir.

2. Aşkar edilmişdir ki, müasir dövrdə qloballaşmanın və milli xüsusiyyətlərin bir – birinə qarşılıqlı təsiri də həyatın digər sahələrində olduğu kimi, ailədaxili münasibətlərə də təsir edir. Sosial mühitin təsiri, obyektiv hadiəslərin subyektiv qəbul edilməsi və dərk edilmçəsi, proseslərin düşüncə və davranışa pozitiv və ya neqativ təsiri qarşılıqlı münasibətlər sistemində də öz əksini tapır.

3. Tədqiqat nəticəsində müəyyən edilmişdir ki, ailə üzvlərinin inkişafı və formalaşması, xüsusən, uşaqların və yeniyetmələrin şəxsiyyətinin formalaşması, onların mənəvi - əxlaqi keyfiyyətləri, dünyagörüşü ailədə psixoloji mühitlə, ailədaxili münasibətlərlə sıx bağlıdır.

4. Milliliyin və qloballaşmanın qarşılıqlı təsiri şəxsiyyətlərarası, ailədaxili münasibətlər sistemində dəyişikliklərin, habelə, çox vaxt, münaqişələrin yaranmasının səbəbidir. Əgər dəyişiklik bilavasitə insanların maraqlarına toxunursa, o zaman onlar psixikada gərginlik, frustrasiya və sabahkı günə inamsızlıq yaradır. Bununla qarşılaşan insanlar, çox vaxt, mürəkkəb vəziyyətdən çıxışı dinə müraciət etməkdə axtarır.

5. Cəmiyyətin həyatında baş verən yeniliklər və dəyişikliklər pozitiv və ya neqativ olmasından asılı olmayaraq, insanlar üçün bir sıra çətinliklər yaradır. Öz fərdi – psixoloji xüsusiyyətlərinə uyğun olaraq onlar bu proseslərə tez və asan adaptasiya olurlar və ya adaptasiyada çətinliklər hiss edirlər. Bütün bunlar

ailədə və ailədaxili münasibətlərdə öz əksini tapır.

6. Müasir dövrdə qloballaşma nəticəsində yaranan kütləvi mühacirət, kütləvi informasiya vasitələrinin göstərdiyi təsirlə birlikdə marginal şəxsiyyətlərin formalaşmasına gətirib çıxardı. Yaşayış yerinin dəyişməsi, məskunlaşma mühiti və tanış olmayan və çox vaxt adət etmədikləri mühitə, yeni cəmiyyətə düşmək insanda diskomfort hissi yaradır, ki, bu da şübhəsiz, qarşılıqlı münasibətlərdə və fərdin psixikasında əks olunur, insanın əvvəlki mühitdə formalaşmış keyfiyyətlərin yeni mühitdə yararsız olmasını qəbul etmək çox çətindir.

7. Müəyyən edilmişdir ki, qloballaşmanın və milliyyətin bir – birlərinə göstərdikləri qarşılıqlı təsir zamanı çox vaxt ziddiyyətlər yaranır. Bu tərbiyə prosesində parlaq təzahür edir. Məlumdur ki, böyüməkdə olan nəsil ictimai normaları və mənəvi dəyərləri məhz tərbiyə prosesində mənimsəyir. Yəni tərbiyə təkcə ümumbəşər deyil, həm də milli dəyərdir. Əgər mövcud vəziyyət, bir tərəfdən, ənənələrə əsaslanırsa, digər tərəfdən də sosial şərtlər bu adətlərə və ənənələrə təsir edir. Nəticədə, konkret tarixi şərtdən asılı olaraq, şəxsiyyətin inkişaf prosesi istənilən istiqamətdə inkişaf etməyə qadirdir. Bu da, öz növbəsində ailədə nəsillər arasında anlaşılmazlığın və ziddiyyətlərin yaranmasına səbəb olur.

8. Qloballaşmanın və milliyyətin qarşılıqlı təsiri və qarşılıqlı əlaqəsi şəhər və kənd mühitində müxtəlif cür təzahür edir. Kəndlərdə şəhərlə müqayisədə milli xüsusiyyətlər daha etibarlı şəkildə saxlanılır. Bunun səbəblərindən biri onunla bağlıdır ki, qərb dəyərləri kəndlərə daha ciddi təsir edə bilmir, digər səbəbi isə daha ciddi ictimai nəzarətin mövcudluğudur. Bununla bərabər, şəhərdə də, kəndə də bizim adət və ənənələrimiz müəyyən dərəcədə modernləşdirilir, onların yerini yad mənşəli dəyərlər tutur. Bir çox hallarda buna görə dağılan ailələrin sayı artır.

9. Tədqiqat göstərdi ki, qloballaşmanın təsiri nəticəsində ailə həyatında, ailədaxili, şəxsiyyətlərarası münasibətlərdə, nəsillər arasında münasibətlərdə yeni qanun və qaydalar yarandı.

Bütün dəyişiklikləri neqativ, mövcud dağıdıcı təsir kimi qəbul etmək lazım deyil. Bir çox pozitiv amillər də mövcuddur, lakin onların qəbul edilməsi və bəyənilməsi üçün bir qədər vaxt lazımdır.

10. Qloballaşma və milliyyət arasında bir sıra ziddiyyətlər mövcuddur. Qloballaşmanın təsiri nəticəsində insanlar tərəfindən mənimsənilmiş bir çox dəyərlər öz əhəmiyyətini itirir. Cəmiyyətin həyatında insanların psixikasına və psixi – sosial vəziyyətinə təsir edən dəyişikliklər baş verir. Nəticədə, əksər hallarda insanlar həyata eyniləşməni itirir, onların şəxsiyyəti deformasiyaya məruz qalır.

11. Müasir Azərbaycan ailələrində qadınların rolu əhəmiyyətli dərəcədə artmışdır. Ailənin maddi dəstəyi, istirahətin təşkili, uşaqların tərbiyə verilməsi kimi mühüm qərarlar qəbul etməkdə getdikcə aktiv mövqe tutur. Bu, öz növbəsində, ailənin qadınları üçün imkanları artırır və onların müstəqilliyini möhkəmləndirir. Eyni zamanda, bu proseslər öz mənfi cəhətlərinə malikdir: boşanma sayının artması, qadınların maraq və marağın azalması və s.

12. Ənənəvi və müasir ailələrin müqayisəsi onu göstərir ki, ailəni sosial və maddi baxımdan təmin edən ailə başçısı rolu kişilərə məxsus idi, lakin hazırda bu status, müəyyən dərəcədə, ər-arvad arasında bölüşdürülür və bu qadınların kişilərdən asılılığını azaldır.

13. Qloballaşma şəraitində ailənin qurulması zaman və ailədaxili münasibətlər üçün vacib olan ənənəvi, proritet yanaşmalar yeniləri ilə əvəz edilmişdir. Bu dəyişikliklər ailə qurmağı planlaşdıran gənc insanlara da, nikahda olan qadın və kişiyə də təsir edir. Ailəyə münasiət cinsindən və yaşından asılı olaraq fərqlənir.

14. Qloballaşma çox vaxt nəsillər arasında yaranan problemlərin səbəbinə çevrilərək onların qarşılıqlı münasibətlərinə və qarşılıqlı anlaşmalarına öz təsirini göstərir.

**Dissertasiyanın əsas müddəaları müəllifin çap olunmuş aşağıdakı əsərlərində öz əksini tapmışdır:**

1. Глобализация. Миф или реальность? / “Dünyada yeni

inkişaf meylləri istiqamətində Türk dünyası, Azərbaycan və Türkiyə" beynəlxalq elmi-praktik simpoziumun materialları. Bakı: 2004, s. 183.

2. Психологические особенности взаимоотношений супругов / Doktorantların və gənc tədqiqatcıların XVIII Respublika Elmi Konfransının Materialları. Bakı: ADTU 2013, s. 368-369

3. Современная азербайджанская семья в условиях глобализации / Doktorantların və gənc tədqiqatcıların XVIII Respublika Elmi Konfransının Materialları. Bakı: ADDU, 2013, s. 194-195.

4. Yeniyetmə və gənclərin psixi inkişafında ailədaxili münasibətlərin rolu / Tədris prosesinin təkmilləşdirilməsi və müasir təhsil konsepsiyaları" mövzusunda beynəlxalq elmi konfransın materialları. Naxçıvan: Naxçıvan Dövlət Universiteti, 2014, s.190-191.

5. Влияние глобализации на национальные особенности и внутрисемейные отношения // Təhsil Problemləri İnstitutunun Elmi Əsərləri, Bakı,2014, №3, s. 169-170.

6. История проблемы глобализации // Psixoloqiya jurnalı, Bakı, 2014, №2, s. 12-21.

7. Сущность проблемы глобализации и ее постановка в литературе // Pedaqoji Universitetin Xəbərləri, Bakı, 2014, №3, s.392-397.

8. Влияние психологических особенностей людей на их приоритетные духовные ценности // Вектор науки. Серия:Педагогика, психология,Тольятти, 2014, №4 (19), с. 73-76.

9. Проблема суицида в подростковом возрасте / İnsan Qloballaşma epoxasında: dünən və bu gün" mövzusunda elmi konfransın materialları. Bakı: ADPU, 2016, s.33-40.

10. Взаимовлияние глобализации и национальной идентичности и их воздействие на внутрисемейные отношения // Поиск, Международного научно-

педагогического журнал, Алматы, 2016, №2 (3), стр.11-16.
11. Личность и ментальность в условиях глобализации // Psixoloqiya jurnalı, Bakı, 2017, №4, s. 12-21.

Vafa Mansur Karimova

**The influence of globalization and national characteristics on interfamily relations**

**Summary**

The study is devoted to one of the topical problems of the modern period - the influence of globalization and national characteristics on intra-family relations. The study of the compliance with psychological law of the influence mechanisms of the globalization and national peculiarities on family relations can also serve as a basis to increase the family's ability to adapt to new conditions and build relationships based on national and moral values. The study consists of an introduction, two chapters, a conclusion and a reference list.

The introduction establishes the timeliness of the problem, the degree of its elaboration, outlines its goals, tasks, hypotheses, methodology and methods of research, develops scientific novelty, described the theoretical and practical importance of the study, and presents the hypothesis to be defended.

The first chapter of the study, entitled **"General theoretical questions of globalization of the national characteristics and its formulation in the literature"** consists of three paragraphs. This chapter explores the history and significance of the problem of globalization, its formulation in the literature, as well as the general problems of national characteristics. Besides, the chapter also focuses on the reasons behind the globalization, its reasons psychological aspects and the psychological value of the globalization.

The second part of the study, entitled **"Changes in the life of society and the psychological features of their influence on intra-family problems"** is also divided into three paragraphs. It examines the psychological effects of globalization and nationality on the psychology and behavior of people, as well as

the impact of national characteristics, customs and traditions that determine the thinking and behavior of the people. In addition, the chapter outlines the psychological characteristics of the approaches and relationships between youth and parents in family, while the second sub chapter elaborates on the results of the conducted experiments.

The interplay of national identity and globalization is turning into a cause of changes of interpersonal, intra-family relations, and in many cases in the system of conflicts. Changes appear to be more evident in the situations when they directly affect people's interests.

The conclusion of the study consolidates presented information. It is concluded that similar to many other dimensions of life, the interplay of globalization and national characteristics in contemporary times also affects family relationships. The impact of the social environment, the subjective perception and understanding of objective events, and the positive or negative effects of processes on thinking and behavior are also reflected in the system of mutual relations.

Керимова Вафа Мансур гызы

**Влияние глобализации и национальных особенностей на внутрисемейные отношения**

## Заключение

Диссертационная работа посвящена одной из актуальных проблем современного периода – влиянию глобализации и национальных особенностей на внутрисемейные отношения. Исследование механизмов влияния глобализации и национальных особенностей на семейные отношения, их соответствия психологическому закону может также служить залогом повышения возможностей семьи адаптироваться к новым условиям и построению отношений на основе национальных духовных ценностей. Диссертационная работа состоит из введения, двух разделов, заключения и списка использованной литературы.

Во введении обосновывается актуальность проблемы и степень её проработки, определяются цели, задачи, гипотезы, методы и методика исследования, раскрывается научная новизна, описывается теоретическая и практическая важность работы, презентуются положения, выносящиеся на защиту.

В первый главе диссертации, названный **«Общетеоретические вопросы проблемы глобализации и национальных особенностей и её постановка в литературе»** состоит из трех подразделов. В этом разделе исследуются история и значение проблемы глобализации, её постановка в литературе, а также общие проблемы национальной идентичности. Кроме того, данный раздел рассматривает причины возникновения и психологические аспекты глобализации, анализируются её психологическое значение.

Во второй главе диссертации, названный **«Происходящие в жизни общества изменения и психологические**

**особенности их влияния на внутрисемейные проблемы»** также разделен на три подраздела. В нем рассматриваются особенности психологического воздействия глобализации и национальности на психологию и поведение людей, национальные особенности, обычаи и традиции, определяющие мышление и модель поведения народа. Кроме того, в разделе также исследуются психологические особенности подходов и взаимоотношений молодежи и родителей в семейной жизни, а во втором подразделе излагаются результаты проведенных экспериментов. Взаимовлияние национальной идентичности и глобализации часто становится причиной изменений в системе конфликтов, а также в межличностных отношениях, в том числе и во внутрисемейных отношениях. Изменения проявляются наиболее очевидно в тех случаях, когда они непосредственно оказывают влияние на интересы людей.

В заключительной части исследования обобщается вся представленная информация и делается **вывод** о том, что взаимовлияние, которое оказывают друг на друга глобализация и национальные особенности, воздействует на внутрисемейные отношения, также, как и на другие сферы жизни. Влияние социальной среды, субъективное восприятие и понимание объективных событий, позитивное и негативное воздействие процессов на мышление и поведение находят свое отражение и в системе взаимоотношений.

Sifariş № 117, tiraj 100
“OPTiMiST” çap mərkəzində çap olunub.

**МИНИСТЕРСТВО ОБРАЗОВАНИЯ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ**
**БАКИНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ**

*На правах рукописи*

**ВАФА МАНСУР гызы КЕРИМОВА**

# ВЛИЯНИЕ ГЛОБАЛИЗАЦИИ И НАЦИОНАЛЬНЫХ ОСОБЕННОСТЕЙ НА ФОРМИРОВАНИЕ ВНУТРИСЕМЕЙНЫХ ОТНОШЕНИЙ

6104.01 – Педагогическая психология

**А В Т О Р Е Ф Е Р А Т**

Диссертации на соискание ученой степени
доктора философии по психологии

**Баку - 2018**